"ƏSRİN MÜQAVİLƏSİ" - 21

# Prezident İlham Əliyev: "Əsrin müqaviləsi" Azərbaycanın müstəqillik tarixinin ən şərəfli və parlaq səhifələrindən biridir

**1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması ilə müstəqil Azərbaycan dövlətinin yeni neft strategiyasının və neft doktrinasının əsası qoyuldu. Dünyanın ən aparıcı neft şirkətləri ilə Xəzərin karbohidrogen ehtiyatlarının ilk dəfə birgə işlənilməsinə başlanıldı. Təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan yeni neft strategiyasının gerçəkləşməsi Azərbaycanın siyasi və iqtisadi müstəqilliyinin möhkəmlənməsinə real zəmin yaratdı, dövlətin iqtisadi islahatlar konsepsiyasının həyata keçirilməsi üçün geniş imkanlar əldə edildi.**



*Bununla da ulu öndər Heydər Əliyev o dövrün böhranlı siyasi, sosial-iqtisadi şəraitində növbəti dəfə böyük siyasi cəsarət, dönməz iradə, liderlik keyfiyyəti, dəqiq iqtisadi hesablama və dərin müdriklik nümayiş etdirərək müstəqil Azərbaycanın yeni doktrinasını irəli sürdü.* O zaman müstəqillik dövrünə təzəcə qədəm qoyan, keçid dövrünün çoxsaylı siyasi, iqtisadi, sosial çətinlikləri ilə üzləşən, əhalisi müharibə, qaçqın və köçkünlük şəraitində yaşayan, digər tərəfdən isə daxili və xarici separatçıların təxribat planlarının hədəfində olan gənc müstəqil Azərbaycan dövləti məhz dahi şəxsiyyət Heydər Əliyevin siyasi təcrübəsi, uzaqgörən, müdrik və səriştəli dövlətçilik siyasəti, idarəçilik məharəti, milli təəssübkeşliyi sayəsində bütün təhlükələrdən xilas ola bildi. Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsinə, onun iqtisadi yüksəlişinə və qüdrətli dövlətə çevrilməsinə hesablanmış yeni neft strategiyası milli təhlükəsizliyin təmin edilməsi, ölkədə ictimai-siyasi və *iqtisadi sabitliyin qərarlaşması, demokratik dövlət quruculuğu istiqamətində mühüm siyasi və hüquqi islahatlara başlanılması, azad bazar iqtisadiyyatının qərarlaşması yolunda mühüm aparıcı faktora çevrildi.*

Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi altında ardıcıl və sistemli şəkildə həyata keçirilən, bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən yeni neft strategiyası ötən 14 il ərzində Azərbaycanın bütün həyati əhəmiyyətli sahələr üzrə dinamik inkişaf etməsi, beynəlxalq arenada nüfuz və mövqelərini möhkəmləndirməsi, habelə milli təhlükəsizlik maraqlarını yüksək səviyyədə təmin etməsi baxımından müstəsna rol oynamışdır. Yalnız Azərbaycanın deyil, bütövlükdə regionun sosial-iqtisadi yüksəlişinə real zəmin yaratmış və "Əsrin müqaviləsi"nin imzalanması ilə təməli qoyulmuş bu uğur strategiyası Azərbaycanın çağdaş müstəqillik tarixinin ən şərəfli, parlaq səhifələrindəndir. Xəzər dənizində beynəlxalq əməkdaşlığın əsasını qoymuş bu qlobal enerji müqaviləsinin imzalanması, eyni zamanda, Azərbaycanın müstəqil dövlət olaraq öz təbii sərvətlərinə sahib çıxmaq, milli mənafelərini, iqtisadi və strateji maraqlarını sonadək müdafiə etmək əzmində olduğunu bir daha təsdiqlədi. Bu müqavilə dünyada miqyasına görə ən iri enerji layihəsinin həyata keçirilməsini təmin etməklə yanaşı, Azərbaycanın ciddi elmi əsaslara söykənən sosial-iqtisadi inkişaf konsepsiyasının əsasını qoydu.

Müəllifi ulu öndər Heydər Əliyev olan milli neft doktrinası 21 ildir ki, müstəqil Azərbaycan dövlətinin iqtisadi siyasət kursunun prioritet istiqamətini, milli iqtisadi yüksəliş xəttinin aparıcı amilini təşkil edir. Tam qətiyyətlə demək olar ki, "Əsrin müqaviləsi" Azərbaycan dövlətinin milli inkişaf strategiyasını müəyyənləşdirən unikal bir konsepsiyaya çevrilmişdir. Ötən 21 illik dövr ərzində Azərbaycanın Qərb dövlətləri ilə münasibətlərinin strateji müstəvidə inkişaf etməsi, aparıcı dünya dövlətlərinin strateji tərəfdaşına çevrilməsi, bütün regionda sülhün, sabitliyin, davamlı inkişafın real təminatçısı olan lider dövlət kimi nüfuz qazanması, Azərbaycanla genişmiqyaslı əməkdaşlığa maraqların artması, beynəlxalq biznes və maliyyə qurumlarının Azərbaycana sərmayələr yatırması milli neft strategiyasının uğurları kimi qiymətləndirilir.

1994-cü ildən bəri ötən 21 illik müddət ərzində "Əsrin müqaviləsi"nin uğurla həyata keçirilməsi sayəsində Azərbaycanın iqtisadi və sosial inkişafında, dövlətimizin iqtisadi və siyasi təhlükəsizliyində, milli müstəqilliyimizin və suverenliyimizin möhkəmlənməsində, ölkəmizin beynəlxalq nüfuz qazanmasında mühüm



**ADƏM ƏKBƏROV,**
SOCAR-ın Təhlükəsizlik İdarəsinin Hərbiləşdirilmiş Mühafizə Departamentinin rəis müavini

irəliləyişlər, tarixi nailiyyətlər əldə edilmişdir. Bünövrəsi ulu öndər Heydər Əliyev tərəfindən qoyulan, həyata keçirilən və müasir dövrdə Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən və daha da genişləndirilən, tam imkanlarla həyata keçirilən dövlət neft strategiyasının 21 il ərzindəki uğurlu nəticələri Azərbaycan xalqının həyat səviyyəsinin davamlı yüksəliş göstəricilərində öz real əksini tapmışdır. Belə ki, bağlanılmış müqavilələrin uğurla həyata keçirilməsi nəticəsində ölkəmizin iqtisadi, sosial və sənaye sahələrinə milyardlarla dollar həcmində xarici sərmayələr qoyulmuş, nəhəng xarici biznes strukturlarının, adamlarının Azərbaycana marağı güclənmiş, respublikanın bütün regionlarını əhatə edən on minlərlə yeni iş yerləri açılmış, Azərbaycanın xarici ticarət dövriyyəsi davamlı olaraq artmış, ölkəmizin beynəlxalq iqtisadi və siyasi əlaqələri günbəgün genişlənmiş, iqtisadi baxımdan qüdrətli dövlətə çevrilmişdir.

Bundan əlavə, yeni neft strategiyasının uğurları Azərbaycanın dünya iqtisadiyyatına dinamik inteqrasiyasını təmin etmiş, respublikanın Avroatlantik məkana inteqrasiyasını sürətləndirmiş, NATO, GUAM, İslam Konfransı Təşkilatı və digər aparıcı beynəlxalq təşkilatlarla əməkdaşlığına müsbət təsir göstərmiş, regionda digər mühüm enerji və kommunikasiya layihələrinin gerçəkləşməsini stimullaşdırmışdır. Ümummilli lider Heydər Əliyevin uzaqgörənliyi və müdrikliyinin bəhrəsi olan neft strategiyasının uğurları nəticəsində Azərbaycan regionda həm lider dövlət, həm də regional və qlobal iqtisadi layihələrin aparıcı iştirakçılarından biri kimi tanınır. Həmin müqavilə Cənubi Qafqazda sülhün və əmin-amanlığın qarantı kimi Azərbaycana beynəlxalq nüfuz qazandırıb. "Əsrin müqaviləsi"nin iştirakçısı olan dövlətlərlə daim artan geniş iqtisadi, sosial və mədəni əməkdaşlıq əlaqələri və bu əməkdaşlığa digər güclü dövlətlərin də qoşulmaq marağı Azərbaycanın bölgədə sülh və sabitlik prinsiplərinə sadiqliyinin beynəlxalq aləmdə daha bir təsdiqinə çevrilib.

Azərbaycan milli neft doktrinasının xalqımız və dövlətimiz üçün çox vacib və mühüm əhəmiyyətini qeyd edərkən, bir prinsipial məsələnin üzərində xüsusi dayanmaq vacibdir. Neftdən əldə edilən iqtisadi və maliyyə kapitalı neçə illərdir ki, Prezident İlham Əliyevin məqsədyönlü səyi nəticəsində Azərbaycanda qeyri-neft sektorunun dirçəldilməsinə, onun davamlı inkişafına istiqamətləndirilmişdir. Azərbaycanda idmanın, təhsilin, mədəniyyətin, incəsənətin, elmi tədqiqatların inkişaf etdirilərək müasir tələblər səviyyəsinə yüksəldilməsi, aqrar islahatların uğurla həyata keçirilməsi və bu sahədə azad sahibkarlığa geniş imkanlar yaradılması, ölkədə inşaat biznesinə geniş vüsət verilməsi, qaçqın və məcburi köçkünlər üçün yeni qəsəbələrinin salınması, bu qəsəbələrin bütün sosial və məişət infrastrukturları ilə təmin edilməsi, qaçqınların yaşayış səviyyəsinin yaxşılaşdırılması, ölkədə istedadlı gənclərə, görkəmli elm və incəsənət xadimlərinə, idmanın inkişafına dövlət qayğısının gücləndirilməsi - bütün bu böyük irəliləyişlər, müsbət nəticələr məhz neft strategiyasının qeyri-neft sektoruna istiqamətlənməsinin bəhrəsidir. Dövlət başçısı İlham Əliyev tərəfindən imzalanan və uğurla reallaşdırılan regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının müsbət nəticələrini də məhz neft strategiyasının məntiqi davamı kimi qiymətləndirmək lazımdır. Bu siyasətin əsasında isə Azərbaycanın yeraltı və yerüstü sərvətlərini, Xəzərin karbohidrogen ehtiyatlarını yalnız və yalnız Azərbaycanın milli mənafelərinə yönəltmək, onlardan xalqımızın rifahı naminə praqmatikcəsinə, uzaqgörənliklə, siyasi peşəkarlıqla istifadə etmək kimi yüksək humanist məram dayanır. Bu xüsusda Ulu Öndərin "Əsrin müqaviləsi" haqqında qiymətli fikirlərindən birinə istinad etmək yerinə düşər; "1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyanın da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə edilməsindən ibarətdir."

Ulu öndər Heydər Əliyevin başladığı milli inkişaf strategiyası öz məntiqli, uğurlu və layiqli davamını Prezident İlham Əliyevin dövlətçilik siyasətində tapır. Bunun bariz nümunəsi təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və milli neft doktrinasının tərkib hissəsi olan, çoxlarının əfsanə adlandırdığı Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri ideyasının Prezident İlham Əliyev tərəfindən gerçəkləşdirilməsidir. Kəmərin Azərbaycan hissəsinin 2005-ci il mayın 25-də keçirilən açılış mərasimi müasir dünyanın ən mühüm hadisələrindən biri kimi bütün dövlətlərin diqqət hədəfinə çevrildi. Heydər Əliyevin adını daşıyan Bakı-Tbilisi-Ceyhan dünyanın ər iri qlobal enerji layihəsi kimi yüksək qiymətləndirildi. Layihənin həyata keçirilməsi müstəqil Azərbaycanın siyasi və iqtisadi həyatında yeni tarixi mərhələnin başlanğıcını qoydu. Bu layihə Şərq-Qərb enerji-nəqliyyat dəhlizinin tərkib hissəsi kimi ölkələrarası beynəlxalq əməkdaşlığın genişlənməsinə stimul verəcək, üç respublikanın iqtisadi yüksəlişi, yeni beynəlxalq iqtisadi əlaqələr qurması, yeni sərmayələr cəlb etməsi üçün geniş imkanlara real zəmin yaradacaqdır. Ən başlıcası, BTC-nin reallaşması Azərbaycanın regionda lider, aparıcı, qüdrətli, sabitliyin təminatçısı olan dövlət kimi də mövqeyini daha da möhkəmləndirmiş, onun digər irimiqyaslı və qlobal enerji layihələrində iştirakını təmin etmişdir.

Layihənin geosiyasi əhəmiyyətini qiymətləndirən Ulu Öndər vaxtilə bildirmişdi: "Bizim gördüyümüz işlər, Bakı-Tbilisi-Ceyhan siyasi xarakter daşıyır. Bu layihə və onun həyata keçirilməsi Qafqaz bölgəsində sülhün, əmin-amanlığın, təhlükəsizliyin təminatçısı ola bilər. Bu boru xətti, bu polad boru Azərbaycanı, Gürcüstanı, Türkiyəni bir-biri ilə daha sıx birləşdirəcəkdir." Ümummilli lider Heydər Əliyevin müdrik uzaqgörənliklə söylədiyi bu fikir artıq gerçəkliyə çevrilmişdir. Onun adını daşıyan BTC-nin açılış mərasimində bu layihənin müasir qlobal enerji layihələrindən biri kimi strateji, iqtisadi, geosiyasi, beynəlxalq əhəmiyyətini vurğulayan Prezident İlham Əliyev kəmərin regionda təhlükəsizliyin və davamlı sabitliyin bərqərar olması üçün böyük rolunu da diqqətə çəkmişdir: "Mən şübhə etmirəm ki, bundan sonra da Bakı-Tbilisi-Ceyhan Azərbaycan xalqına, bizim qonşu, dost ölkələrimizə böyük sərmayə, fayda gətirəcəkdir. Bu gəlir, əlbəttə ki, ilk növbədə bizim iqtisadi problemlərimizin həlli üçün bizə kömək edəcəkdir. Sosial problemlərin həlli də öz əksini tapmalıdır. Amma eyni zamanda, biz onu da gözəl bilirik ki, regionda təhlükəsizlik sisteminin möhkəmlənməsi işində bu kəmərin rolu çox böyük olacaqdır. Buna ehtiyac var... BTC neft kəmərinin bölgədə əməkdaşlığın, sülhün, təhlükəsizliyin təmin edilməsində mühüm rolu olacaqdır. Bu kəmər eyni zamanda regional əməkdaşlıq baxımından da çox gözəl nümunədir, örnəkdir."

Beləliklə, 21 il bundan əvvəl ulu öndər Heydər Əliyevin zəngin siyasi-dövlətçilik təcrübəsinin və demokratik dövlətçilik siyasətinin bəhrəsi olan "Əsrin müqaviləsi" yalnız yeni neft strategiyasının və iqtisadi inkişafın deyil, bütövlükdə müstəqil dövlətçiliyimizin mövcudluğunun bünövrəsini qoydu.

"Əsrin müqaviləsi"nin gerçəkləşdirilməsi ölkəmizdə neft-qaz sənayesinin, neft iqtisadiyyatının müasir texnologiyalar əsasında qurulmasına və inkişaf etməsinə, modern qazma və hasilat texnologiyalarının tətbiqinə, yeni neft-qaz yataqlarının istismarına, beynəlxalq əhəmiyyətli boru kəmərlərinin çəkilməsinə, neft İstehsalında artıma, peşəkar kadrların hazırlanmasına səbəb olmuşdur. Azərbaycanın iqtisadi və sosial inkişafı öz növbəsində neft işçilərinin sosial vəziyyətinin yaxşılaşması, onlara dövlət qayğısının artırılması, neft sənayesində işçilərin əmək şəraitinin yaxşılaşdırılması, maaşlarının artırılması ilə nəticələnmişdir. Məhz milli neft strategiyasının real uğurlarının nəticəsi olaraq ulu öndər Heydər Əliyevin fərmanı ilə Azərbaycanda "Neftçilər Günü" təsis olunmuş, "Əsrin müqaviləsi"nin imzalandığı gün - sentyabrın 20-si Azərbaycan neftçilərinin bayramı elan edilmişdir. Ümummilli Liderimizin bu addımı neftçilərin əməyinə verilən yüksək qiymətin təzahürü kimi bütün neft sənayesi işçiləri tərəfindən müsbət qarşılanmış, layiqincə qiymətləndirilmişdir. Neftçilər Günü yeni neft strategiyasının məntiqi təntənəsi, iqtisadi və siyasi qələbələrimizin daha bir rəmzi kimi müstəqillik tariximizə əbədi həkk olunmuşdur.

Bu bayram münasibətilə bütün neftçiləri səmimiyyətlə təbrik edir, şərəfli, gərəkli və çətin işlərində onlara yeni-yeni uğurlar diləyir, möhkəm çansağlığı, ailə səadəti arzulayıram.

**Mənim neftçi qardaşım**

*Ulu millətimin ölməz öndəri*
*BTC-ni gerçək edəndən bəri,*
*"Əsrin müqaviləsi"lə bərabər,*
*Adınız da olub dillər əzbəri.*
*Özüm də şahidəm, az deyil yaşım,*
*Mənim neftçi bacım, neftçi qardaşım.*

*Çəkdiyiniz əməyin şah damarı -*
*BTC yol saldı dünyaya sarı.*
*Özümə borc bildim şərəfinizə,*
*Mən də iki kəlmə söz qoşum barı.*
*Millətimin fəxri, igid yurddaşım,*
*Mənim neftçi bacım, neftçi qardaşım.*

*Daha qüdrətlidir dövlətim-şənim,*
*Etibarlı əllərdədir vətənim.*
*Bu şöhrətə töhfədir əməyiniz,*
*Siz zəfər çaldıqca qoy təbim mənim,*
*Çulğasın qəlbimi, hey coşum, daşım,*
*Mənim neftçi bacım, neftçi qardaşım.*

*Nümunə götürüb qoy hər kəs sizdən,*
*İbrətlə ruhlanıb əməyinizdən,*
*Uğurlardan töhfə versin millətə,*
*Şərəf ilə xidmət etsin dövlətə.*
*Qurbandır mənim də vətənə başım,*
*Mənim neftçi bacım, neftçi qardaşım.*

*Hər biri qəhrəman, igiddi, ərdi,*
*Dalğalara dov gəlib sinə gərdi...*
*"Neft Daşları" əfsanədi, hünərdi,*
*Qara, kiçik qaya idi bir zaman,*
*Əgər aldatmırsa məni yaddaşım,*
*Mənim neftçi bacım, neftçi qardaşım.*